


АРХИВ
894.3-1
M-97

1932
524
894.362-1
M-94

M. MYŞFIQ

Oqtjabrьn 15 illiginə Ithaf

# BURUQLAR ARASЬNDA

POEMA

17839
М. Ф. Ахундов адына
Азәрбайҹан Республика
Үмуми Китабханасы

AZƏRNƏŞR

Bakь—1932

05534

Redaqtoru:
ÇƏHANGIR ZADƏ
Texredaqtoru:
M. T. KƏRIMOV
Buraqьçь:
X KAZЬMOV

*Qavьqьnь:*
*rəssam ƏMIR HAÇЬ ZADA*
*çəkmişdir.*

*Baş Mətbuat Mydirliji Myvəkkili 7097 ADN 769 Sifariş 1034.*
*Tirazь 3000.*

*Istehsalata verilmiş 25/X-32.* *Capa imzalanmьş 2/XI-32.*
*Cap listi 1½* *Kaqьzьn formatь 58×82*
*AZƏRNƏŞR mətbəəsində basьldь.*
Bakь, B-Morsqoj və Qrasno-Presnenski kycələrin tinində 16/36.

## BURUQLAR ARASЬNDA.

I

Kim dejir burada jalnьz əmək var,
Bu səz doqru dejil, jalandьr-jalan!
Bir qədər həjatь dərin dujanlar
Dyşynər neçədir bizim Neftalan.

—

Bir coqu zevq alьb xəjalətindən
Bu hisli mə'dənə sərvistan dedi.
Bir coqu qьzarьb xəçalətindən
Θlərsən burada jaşasan dedi.
Illərçə carpьşdь—xəjal, həqiqət,
Bundan bir nətiçə cьqmadь fəqət.

—

Kimi orman sandь bu mə'dənləri
Bojlu buruqlarь bənzətdi cama,
Kimi necə min il dənərək geri
Mə'dəndən kecərkən, daldь ehrama;
Burda nə Mьsьr var nə ehram vardь.
Nə orman, nə sərvi, nə də cam vardь.

—

O dik baş buruqlar, dərin qujular,
O capraz damarlar, uzun borular,
Adamsьz işləjən sərt tulumbalar,
Ici hava dolu məhkəm trubalar;
Mənim mə'dənimə ajid levhələr...
Mənim mə'dənimdə ehram nə gəzər?!

—

O qьşqьran buruq—harajcь fantan
O zərbəci nəfər—şanlь qahraman
O benzin zavodu—o durulan qan
O verilən rəqəm—beşillik plan
Mənim mə'dənimə ajid levhələr...
Mənim mə'dənimdə orman nə gəzər?!

———

O mazut gəlçygy, aqan qara su,
O balta, o jeni qazьlan quju,
O jerin altilə uzanan boru
Bu mə'dən gəzəli, bu mə'dən oqlu
Mənim dastanьma ajid levhələr....
Mənim dastanьmda xəjal nə gəzər?!

———

Baq o buruqlarьn qarşьsьndaki
Jan-jana oturmuş iki gənçə baq.
Onlardan gəzyny ajьrma, ta ki,
Ətrafь qaranlьq byryjynçə, baq
Baqmaq ajьbsa da sevişənlərə
Sən bu mənzərəji gətir nəzərə!

———

Bir daşьn ystyndə onlar oturmuş
Bir gəlçyk titrəjir qarşьlarьnda.
Xəjallarь həmən gəlçygə vurmuş
Sanki bir çəməndə su kənarьnda,

———

Iki gənç oturub baş-başa vermiş.
Onlar quçaqlaşьr, onlar əpyşyr.
— Kimin həjatьnda joqdur bəjlə iş?—
Qьvrьlan kəlgələr gəlçygə dyşyr
Onlar qacsalar da mənim gəzymdən
Tə'qib edəçəgəm bu həjatь mən.

———

Hər dirək ystyndə bir jeni jьldьz
Uzatmьş gəlçygə nurdan sytunlar
Bu qara ajnada imdi baqьnьz
Aramla sьqlaşan iki kəlgə var.

———



Hər tərəfdə sykut his ilə caqlar
Ajnada çanlanan bu iki xəjal
Şirin pьsьltьlar, xoş danьşьqlar
Bə'zən bu sykutu əjləjir ixlal,
Mən jaxşь bir rəssam olsajdьm əgər
Burdan çьqarardьm çanlь levhələr.

———

Nə şirin danьşьr bizim Gyləndam
Onun topuq calan dilinə bir baq!
Nə isə səjləjir; dutmajьr aram,
Onun ədasьna fe'linə bir baq,!

———

Nə jaman bişirir Qurgen bu qьzь
Bizim bu Qurgen də jaman bəladьr.
Gyləndam bir jeni sevgi xьrsьzь
Qurgen gəzəlliklə coq aşnadьr.
Nə olur jolumdan azaçaq olsam
Bir az da sevgidən jazaçaq olsam!

———

Məni bu səhnəçik cəkir əzynə
Onlar qəhqəhəjlə çoşur, gylyrlər.
Bu maraqlь səhnə, bu jeni səhnə.
Mənim həjatьmda joqmudur məgər?!

———

Mənim də, sənin də, onun da zatən
Bojlə bir səmimi maçarasь var,
Kimi xoşnud olmuş məhəbbətindən
Kimi ajrьlьqa olmuş griftar,
Xylasə məhəbbət jaman şej dejil,
Ajrьlьq olursa gəryşə təbdil.

———

Bəlkə də sevgidə həjati olsan
Kənlyn zərrə qədər inçiməz ondan
Vaj odur, xəjala, hissə qapьlsan
Dynja kəsiləçək başьna zindan.

———

Halbn gyny-gyndən xarab olaçaq,
Bunu hiçran dərdi çəkənlərə sor!
Izlədigin sular sərab olaçaq,
Bunu da gөz jaşь tөkənlərə sor!
Sormasan da birdir, sorsan da birdir,
Mənim bu tədbirim jaxşь tədbirdir.

---

Bir coqu istəjir kөlgəliklərə
Cəkilib nəzərdən uzaq olsunlar,
Qacbb sьqьnьrlar kөlgə bir jerə
Bunlarьn zatьnda mənçə şybhə var.

---

Baqьnьz nə gөzəl dejir, danьşьr
Mə'dən javrularь mə'dən icində.
Bu sevgi dөjyşgən fikirlər daşьr
Bu sevgi lazьmdьr jarьn icin də
Sөjlə kim istəməz həjatda bunlar
Şanlь bir həjatla məs'ud olsunlar.

---

Xajьr, bu həjata əngəl olan var;
Sevməjən az dejil bu məhəbbəti.
Kim ki, bu sevdaja xor gөzlə baqar
Bil ki, dumanlьqdьr onun nijjəti.

---

Əsil məsələ də burdan başlajьr
Azmь, kələk quran proletara?
Bə'zən, icərisi onu daşlajьr
Bə'zən hədəf olur jabançьlara.
Biz isə buraqьb xarici, jalnьz
Daxili dyşməndən danьşaçaqьz.

II

Bajьlda bir bөjyk e'malatxana...
Işci gənçlərini basmьş baqrьna.
Өnyndə dəzgahь, alnьnda təri
Sejr et Ivanovu, sejr et Hejdəri
Sejr et Tərazdarь, gөr nələr japьr.
Bunlarda sarsьlmaz bir qyvvə vardьr



Kimdi, o kecmişin məqrur hejkəli
O məl'un jataqan. o cirkin zəli.
Dejirdi: «bunlardan nə olaçaqdьr,
Bunlarьn jьqьnaqь jalnьz soqaqdьr».
Xajьr!... bu gөrdygyn hisli uşaqlar
Jarьn bir dynjanь parlataçaqlar.
Onlarьn sən'əti hazьrlьqlarь,
Jynylləşdirəçək aqьrlьqlarь.
Onlar gyçlərini gөstərəçəklər,
Bu qoça dynjaja ruh verəçəklər.
Bu qoça dynjamьz çavanlaşaçaq;
Həjat sirlərilə çoşub, daşaçaq.
Onlar həm oqujur, həm işləjirlər.
Gyny-gyndən artьr genişləjirlər.
Məktəb janьndadьr e'malatxana,
Burdakь mənzərə sьqmaz bəjana.
Biri pərgar syrtyr, biri kəlbətin
Şejlərin adьnь sөjləmək çətin.
Başqa qijamət var bu vurha-vurda
Bu gyn altь sьnьf calьşьr burda.
Xysusən «xozrascot» olandanbəri
Bysbytyn dəjişmiş əmək şərtləri.

**Qurgen**

Işdən sojumuşuz aj usta!

**Usta**

Neçə;

Bu sөz jaraşarmь bir işci gənçə?
Işdən sojumaqmь, haj-haj onda siz,
Bizə, təşəkkyrlər etməlisiniz
Həjatьn hər dyrly aqьrlьqьnь,
Qaba viçdanlarьn saqьrlьqьnь,
Kecmiş zamanlarda dujarkən belə,
Өmrymyz keçərkən iztirab ilə,
Hər dyrly açьja døş gerib jenə,
Atьldьq həjatьn dөjyşlərinə.
Nə tez soqudunuz?!

**Qurgen**

Xajьr aj usta
Səninlə şərikəm mən bu xysusda;
Fəqət məsələdən xəbərin joqdur.
Hansьnь søjləjim: dərdimiz coqdur.
Bilməm, bu haqsьzlьq nədən, necindir,
Hənuz maaşьmьz həmin həmindir.
Nə işdən qalmьşьz, nə də ki dərsdən,
Əlqərəz salьrlar bizi həvəsdən.
Kecən aj bajraqь biz almalьjdьq;
Ançaq biz nədənsə kənarda qaldьq;
Gətyryb verdilər tyrk qrupuna.
Məgər millətcilik dejilməz buna?
Zərbəci jazьldьq, jarьşa girdik
Bir ajda ijirmi carpajь verdik.
Bajraq uruslara kecdi bu aj da
Burda nə qanun var, nə də ki qajda

**Bir tələbə**

Dyz dejir, aj usta belə iş olmaz
Bizim qajdьmьza qalьnьz bir az!

**Usta**

Gynahьn bøjygy øzynyzdədir
Etmiş hamьnьzь tənbəllik əsir.
Bir qədər həvəslə calьşsajdьnьz
Qьrmьzь levhəjə dyşyb adьnьz,
Sizə verilərdi qьrmьzь bajraq;
Bu işdə myqəssir sizsiniz ançaq.

**Qurgen**

Usta bøjlə dejil, təəssyf ki siz
Işlərin køkyndən bixəbərsiniz.
Bizi bu məktəbdə saja salan joq,
Sorub halьmьzь xəbər alan joq.
Qruplarda donluq artmьş nə carə,
«Bizi tapşьrmьşlar pərvərdigarə»
Bununla kim gedər søjlə iləri
Baqьnьz erməni tələbələri



Dajim gøndərilir aqьr işlərə,
Əsla alan joqdur bunu nəzərə.
Nəzərijjə ajrь, təçribə ajrь
Hecdir uşaqlarьn calьşmalarь.

**Usta**

Bytyn bir məktəbdə dejil ki təqsir
Bir necə adamdьr burda myqəssir.
Qontorun işidir cynky bu işlər
Mənçə bu noqsanь çədvəlci bilər.
Saatьnьz əksik jazьlmьş sizin
Qijməti azalmьş əməginizin.
Gələçək içlasda əgər varsьnьz
Orda mybahəsə apararsьnьz.

*(Tələbələr ustanьn başьna toplanьr)*

**Birisi**

Xəbərin varmьdьr aj usta

**Usta**

Nədən?
— Jeni məhəbbəti-səmimanədən
Dejə bir tələbə usta Çalalь
Doqan hadisədən əjləjir halь.
— Guja Gyləndama Qurgen vurulmuş;
Gyləndam da onun əsiri olmuş.
Bytyn tələbələr bilir bu işi,
Gərək hara cьqar işin gedişi.
— Əçəb xəbərsizəm bu qalmaqaldan
Kim kecər o qara həbəşi xaldan?
Dijə, usta Çalal işarə etdi,
O qədər gyldy ki, yrəgi getdi.

III

Bajьlda møhtəşəm bøjyk bir qlub
Jaratmьş sənətkar çanlь bir yslub

Gejinmiş-keçinmiş işcilər gəzir;
Insan hər şejdə bir juçalьq sezir.
Bytyn qydrətini sərf edir geçə
Өulubda jьldьzlar gylymsədikçə
Olubumuz başqa bir rəngə dyşyr;
Ojnaq həjatьmьz ahəngə dyşyr.
Tə'rifə sьqmajan tə'sirli bir hal
Gөzəl bir həqiqət, tatlь bir xəjal...
Nədir o sallanьş, nədir o rəftar
Sanki qьmьldanьr bir inçə ruzgar
Bir az bundan əvvəl mavi kөmləkli
Jaqasь acьlmьş, qolu cirməkli
Yz-gөzy hislənn.iş qьzlar ki vardь,
E'malatxanada calьşarlardь;
Onlar nədən bөjlə gөzəlləşdilər
Onlar gөzəlliklə sanki eşdilər.
Bir az əvvəl mənə qansьz gөrynən
Jorulmuş gөrynən, çansьz gөrynən
Insana mərhəmət hissi dujuran
Kirli əllərini sacьna vuran,
O gənç qьzlar məni coq dyşyndyryr.
Fikrimi həjatьn nəş'əsi byryr.
Jorqun dyşyncəli gөzəl gөzlərə,
Bezgin ləhcələrə, qьrьq sөzlərə,
Bu qьvraq alavь kim sacdь bilməm?
Bunlarьn kөnlyny kim acdь bilməm?
Өnçə sarь olan bu janaqlara
Rəngi ucub gedən bu dodaqlara
Bu xoş qьzьllьqь kim, hanki qydrət
Qojaraq, onlara verdi şətarət.
Jaqmazmь gənçləri bu girişmələr?
Qabarьb alcalan o gənç məmələr,
Titrərkən ipəkli ləzzət icində,
Şybhəsiz qalarsan hejrət icində.
Bu daşqьn həjatь bu gөzəllərə
Kim verdi səjləjin bari bir kərə.
Kim o təbəssymy alavlandьrdь?
Bu nəş'əji hankь qydrət jandьrdь?!
Qurgen Gyləndamь almьş qoluna
Bu mə'dən qьzьna, mə'dən oqluna

Gөz altь baqaraq gylən az dejil,
Onlarь tanьjan, bilən az dejil.
Mən də tanьjьram bu iki gənçi,
Qaplajьr kөnlymy həjat sevinçi.
Gyləndam danьşьr, Qurgen dinləjir
Qьzьn dodaqьndan qopan sөzləri.
Qurgen damaqsьzdьr fikir əjləjir
Bə'zən halqasьndan cьqьr gөzləri.

**Qurgen**

Nə, neçə? mənimlə gəzməgi sana
Qomsomol katibi qadaqan etmiş?
Jaxşь jerində səjlədin mana
Onun fikirləri kecmişə getmiş.

---

Bizim aramьzda xajьn az dejil
Өrtyly pərdələr jьrtьlmalьdьr!
Onlar avam dejil, anlamaz dejil
Xajьnlar bajьra atьlmalьdьr!
Daha nə səjlədi?

**Gyləndam**

Qəlbindəkini
Danьşdьqça artdь qəlbində kini
Aqzьna gələni mana səjlədi
Ystəlik kөnlymy təhqir əjlədi.

**Qurgen**

Sən o təhqirləri başьndan cьqar
Baqarьz sonunda kim, kimi jьqar
Bizdə haq qyvvətə ystyndyr fəqət,
Baqarьz gyləçək kimə həqiqət?
Baqarьz kim olar sonunda pəşman
Əlbət ajdьnlaşar dost ilə dyşman.
Jetər bu xajьnlьq, bu həjasьzlьq,
Dөzylməz bu qədər hiləjə artьq.

---

IV

Sən jaxşь bilirsən mənim oquçum,
Işcilər edərkən dənizə hyçum.
Bir sahil jaratmьş dənizdə Buxta
Dənizin dəşyndə bir qara laxta
Boqur dalqalarьn mavilijini
Hətta bu laxtanьn aqьr ijini,
Tənəffys edərkən ənbər jerinə,
Dolmuş kəvryk kibi çigərlərinə.
Bu geçə gəj jyzy bulutlu dejil,
Xəzərin dəşy də mazutlu dejil,
Çənubdən əsnəjir sanki gilavar;
Bu geçə sahilin başqa zevqi var.
Xuraman ləpələr bəjaz quş kibi,
Ucurlar uzaqdan jorulmuş kibi,
Bu geçə dənizə gəjdən pul jaqьr
Jalcьn qajalarьn ujqusu aqьr.
Gəjdən martdьm-martdьm baqьr jьldьzlar
Syzylyr gəz kibi aqьr jьldьzlar.
Aj sularda cimən bir gəzəl kibi
(Mənim də bu şeirim bir qəzəl kibi)
Bir dənizə baqьr Qurgen bir qьza
Bə'zən istəjir ki, jolundan aza
Başьna umulmaz fikirlər gəlir.

**Qurgen**

Doqrudan təbiət gəzəl şeirdir.
Əjlə dejilmidir Gyləndam

**Gyləndam**

Bəli
Bə'zən dinç durmajьr Qurgenin əli
Əjlə ki əlini salьr bojnuna,
Qьzьn çibgir kibi girir qojnuna.



**Gyləndam**

Qurgen mənim sənə bir sualьm var
Fəqət bu sorqudan olma dilfikar
Bu qədər erməni qьzьnь qojdun,
Nə ycyn tək mənim sevgimə ujdun.
Çavab verərmisən?

**Qurgen**

Verməرəm xajьr,
Çynky sualьnьz coq dolaşьqdьr
And olsun o şəvə gəzlərinizə,
And olsun gylməli səzlərinizə
And olsun bu sadə dyşyncənizə,
Əsla jaraşmajьr bu sual sizə.
And olsun gəjlərin dərinliginə,
Bu səssiz sahilin sərinliginə,
And olsun gənçligin şətarətinə,
Məhəbbətin gəzəl əsarətinə.
Inan! təbiətdən kənar olmajan
Dənməkdə hec şejdən geri qalmajan
Hiçran geçəsinə, hiçran qəminə;
Sonra qlubdaki eşq aləminə.
And olsun varlьqla barabar dənən
Barabar parlajan, barabar sənən
Gəjdə jьldьzlara, gynəşə, aja
*(Kitabcasьnь cьqararaq)*
Onlardan qijmətli bu kitabcaja!
Inan! qomsomolun dəmir joluna
Bir mə'dən qьzьndan, mə'dən oqluna
Verilən bu sorqu, açьdьr bir az!
Onu kimə desən gylər, inanmaz.
Gyləndam, fikrimçə qomsomolcu qьz
Bu açь sorquda haqsьzdьr; haqsьz!
Mən hər şejdən əvvəl bir işci gənçəm
Mə'dəndə dolanьr gyndyzym-geçəm
Əjlə bir mə'dən ki jaxşь bilirsən
Uzaqdьr kecmişin qəbahətindən.
Burda tyrk, erməni fikrimçə birdir
Bizi birləşdirən Oqtjabrdir.

O bøjyk inqilab gynyndənbəri,
Eşitmək istəməm bøjlə søzləri.

Qurgen danьşdьqça hafizəsində
Çanlanьr mazinin keşməkeşləri,
Bir cəlik døjylyr sanki səsində
Søjləjir başьna gələn işləri.

**Qurgen**

Hala jadьmdadьr; bir qьş geçəsi
Kyləklər atьnь minib, capьrdь.
Başьmьn ystyndə nənəmin səsi,
Əsnədikdə øz jolundan sapьrdь.

Qorqu altьndajmьş kicik kəndimiz;
Bunu mən coçuqdum, başa dyşməzdim.
O geçə jataqa cəkilinçə biz,
Evimizdə—bøjyk bir təlaş sezdim.

Qart mysavatcьlar mərhəmətsizçə,
Gøzəl kəndimizi topa dutdular;
Gøz-gøzy gørməzdi sanki o geçə,
Onlar od jaqdьran bir bulutdular.

Gøjdən ystymyzə dolu jaqьrdь.
Øjlə bir dolu ki odlu jaqьrdь
Hər təraf alavdь, hər təref tysty,
Alavdan daqlarьn dumandь ysty.

Gyləndam! jadьnda joqmudur məgər
Jetimlər evində qaldьqьm gynlər
Sən də bir balaça qaraşьn qьzdьn
Sən də kimsəsiz idin, sən də jalьnьzdьn
Səni də daşnaqlar etmişdi jetim,
Baqьşla qəlbini sьqdь søhbətim.
Gyləndam sən məni coqmu sevirsən?
— Joq lap az sevirəm!
— Jalan dejirsən
Onda mən øzymy øldyrərəm ki,
— Nə olsun øldyr də nə dejirəm ki...
— Işdir, mən ølyrsəm sən nə edərsən
— Bir başqa oqlanla sevişərəm mən,



— Bir başqa oqlanla sevişərsiniz?..
— Coçuqmu sandьnьz Gyləndamь siz?
Jaxşь qomsomolcu çanьna qijmaz,
Həqiqəti atьb xijala ujmaz.
Nə cьqar bu qədər boş danьşьqdan,
Bir iş ətrafьnda søhbət aparsan
Daha gøzəl olar!

**Qurgen**

Søzyn doqrudur!
Mənim də kønlymyn istəgi budur!
Təkərlər altьna øzyny vuran,
Qanlь pьcaqlarla baqrьnь jaran,
Qijaraq alnьna qurşun sьqanlar,
Sulardan sahilə ølgyn cьqanlar,
Jaşamaqdan dojub, aqь icənlər,
Xəjal, his uqrunda çandan kecənlər,
Kimlərdir? Avara sərgərdan gəzən
Bu jeni dynjadan əlini yzən,
Işini gyçyny buraqanlardьr;
Bu jeni dynjaja xor baqanlardьr.
Ølən bir sьnьfьn tør-tøkyntysy
Doqan bir həjatla baqlamьş kysy.
Ølyrkən ølymlə pənçələşir o
Hirslənir, aqlajьr, inçələşir o
Bə'zən də həjatьn fevqinə cьqmaq,
Ordan gələçəgə sevinçlə baqmaq,
Şevqilə ucarkən maviliklərə
Qanadь qьrьlьr, jьqьlьr jerə,
Noqsansьz dejiləm mən də şybhəsiz
Bunlarla birlikdə dejiləm açiz.
Qəhrimin altьnda olur tarmar
Qəlbimdə, kecmişdən qalan aqrьlar.
Mən kiməm bu gynyn døjyşkən oqlu,
Ьşьqlь məçrasь, dikənsiz jolu,
Mənə fikrim, hissim dejir ilərlə
Ilərlə qollarь qyvvətlilərlə
Fəqət qafilənin başьnda jyry,
Baqma nə olursa qarşьnda, jyry!
**Həjatьn cølləri dikənsiz olmaz**
Cøllər də vahəsiz cəmənsiz olmaz.

**Gyləndam**

Fəlsəfəjə kecmə jaxşь, di, qurtar!
«Danьşьb bir qədər duruqdu onlar
Qьzьn janaƣьnda olan qara xal
Oƣlanьn jaşaran gɵzyndə dərhal
Suda bir milcəgin qanadь kibi
Ojnarkən, bilmədim bunun səbəbi
Nəjdiki, Ƣurgenin gɵzy jaş atdь
Necin Cyləndamь sevgi aƣlatdь.
Onlar, quçaqlaşdь, onlar ɵpyşdy
Bu levhə xəfifçə dənizə dyşdy.
Onlar aralandь, onlar qalqdьlar,
Jenə də jyz-jyzə səssiz baqdьlar».
— Gedək.
— Jaxşь gedək.
Onlar getdilər.
Buruƣlar icində gɵzdən itdilər.

---

O geçə Gyləndam Ƣurgenlə həmən,
Sahildən dɵnərək evə gələrkən,
Bunlarьn ɵnyny kəsdilər birdən;
Bu hala təhəmmyl etmədi Ƣurgen,
Onu vururlarsa qьzьn janьnda,
Onun da ijitlik coqdu çanьnda.

---

Bir gyn jajьldь ki bɵjlə bir xəbər
Ƣurgeni dɵjmyşdyr bir necə nəfər,
Sən o qьzla nicin gəzirsən dejə.
Bu xəbər jajьldь hər gənç işcijə
Ƣurgen bu hadisə qopandan sonra
Nə isə başьndan kecən maçəra:
Firqə ɵzəginə qьldь hekajət;
Bir coq adamlardan etdi şikajət.

---

Nə qomsomol, nə də firqə katibi
Bu hala o qədər fikir vermədi.
Baqьb hadisəjə boş bir şej kibi;
Kimsə bu xysusda bir iş gɵrmədi.

---



Məsələ halbu ki qьzƣьnlaşьrdь
Xəbərsizdi məktəb mydirijjəti
Iş ɵz mehvərindən cьqьb aşьrdь
Kimsə sajmajьrdь bu məhəbbəti.

V

## MƏKTƏB HƏJƏTI

*Gyləndam tələsir....*

**Birinçi tələbə**

Xejir olsun jenə?!
Hara gedirsiniz?

**Ikinçi**

Eşq aləminə!
Ƣurgeni gɵrməgə gedir Cyləndam,

**Birinçi**

Ɵzgənin işinə qarьşmaz adam!

**Gyləndam**

Jetər kinajəni buraqьn jetər
Aƣьdan açьdьr, dikəndən betər,
Sizin bu şybhəli kəlmələriniz.
Bu məktəb dejildir sizin jeriniz!

*(Gyləndam gedir)*

**Birinçi tələbə**

Vallah bunun başь kəsilməlidir
Buna, baq gɵr gedir; kiminlə gəzir
Dejəsən başьna bir tyrk qəhətdi
Jenə də Ƣurgenin janьna getdi.
Gələçək içlasda olursam əgər
Qьzƣьn cьqьşьmь onlar gɵrərlər.
Şura məktəbində sevişmək olmaz!
Doƣru qomsomolcu eşqə dutulmaz!

17839
AZƏRBAJC...
UN 1092

**Ikinçi**

Hələ paltarları, gejinməkləri,
Geçələr qlubda gəzinməkləri,
Qurgenin xaltası bunları gərək
Tamamən içlasda acıb səjləmək.
Doqru qomsomolcu xalta taqarmı?
Hər səhər ajnaja durub baqarmı?
Bu bir jana dursun hələ Gyləndam,
O ki son zamanlar dəjişmiş tamam,
Ipək paltar gejir cıqır bulvara
Qurgen də bəzənib girir şalvara.
Bunların hamsını dəftərcənə jaz
Bunlarsız içlasda danışmaq olmaz.

VI

Bir gyn bizim Qurgen işdən cıqarkən
Qəhramanov ona jaqlaşdı birdən,
Bu onun bildigi adamlardandı
Fikri danışdıqı səzlə ajandı.

**Qəhramanov**

Jaxşı tanıjırsan aj Qurgen məni,
Bytyn tələbələr icində səni,
Bilirsən ki məndən artıq sevən joq
Son vaqtlar səndən inçiklijəm coq
Hec xoşlanmajıram hərəkətindən,
Hissindən, fikrindən, məhəbbətindən
Doqrudan ahmaqdır bu ermənilər.

**Qurgen**

Nə ycyn?

**Qəhramanov**

Qorquram səjləsəm əgər
Jyrəgin sıqılır.

**Qurgen**

Fikrimçə əsla
Sıqılmam səzyndə həqiqət olsa.



**Qəhramanov**

Hanı, neçə oldu juça məsləkin
Atanın tyrklərə bəslədigi kin?
Hanı neçə oldu bəjyk Hajıstan?
Dyşyndykçə duman qalqır başımdan
Vətəni, milləti jadırqadınmı?
Fikrini dəjişən tək bir qadınmı?
Nə oldu atanın parlaq əjydy.
Həram olsun sana ananın sydy!
Balam nə coq bizdə inçə gəzəllər?
Haj qızı başına qəhətdir məgər?
Nijə Gyləndamı sevirsən, nijə,
Adam da bel baqlar hər əçnəbijə?
Nə qədər istəsən əlimdə qız var.
Duruşu məhtəşəm, jyryşy həmvar
Ruh ucar bədəndən ejləsələr naz
Hamı maral kibi, hamı sərvinaz.

---

Başını qaldırdı Qurgen juqarı
Zəhnində kecmişin jıldırımları
Bir anın icində caqdıqça caqdı.
Gəzynyn əryndən coq şejlər aqdı.
Fikrinə tufanlı səhnələr gəldi
Qırqınlar əlymlər fitnələr gəldi.

**Qurgen**

Deməк oqraşlıq da gəlir əlindən?

**Qəhramanov**

Coq saq ol bu səzy sənin dilindən
Aj Qurgen eşitmək istəməzdim hec.

**Qurgen**

Joldaş Qəhramanov sıqılma vaz kec
Qul xatasız olmaz, aqa kərəmsiz.
Siz ki, zatən məni coq sevirsiniz.

**Qəhramanov.**

Əlbəttə, əlbəttə, cynky sonunda,
Avara qojaçaq səni bu sevda.

Bir xata сьqaçaq axьrda bundan
Hətta xəbərdaram vurulduqundan.

**Qurgen**

Mənə əl acanlar gyn olaçaqdьr
Aqьr çəzasьna dutulaçaqdьr
Mənimcin tyrk birdir, erməni birdir;
Səndən millətcilik qoqusu gəlir.

**Qəhramanov**

Joq çanьm, fikrimi janlьş anlama

**Qurgen**

Jaxşь get! japьşqan olma adama

**Qəhramanov**

Saq olun.

**Qurgen** *(dalьnça)*

Buna baq jekəpər qaban!
Gør nələr danьşьr hec utanmadan
Azmь aramьzda sənin kibilər
Sana kimligini Qurgen gøstərər!

VII

Bir zaman Qurgenlə danьşan adam
Øzək katibini buldu bu aqşam
Arada bir uzun søhbət başladь
Mənçə søhbət dejil, qejbət başladь.

**Qəhramanov**

Aj Şahbaz Qurgeni tanьjьrsanmь?
Dynən bulandьrdь təmiz qanьmь,
Atasь qolcomaq, əmisi qacaq
Imdi burda gəlib oqumasьna baq!
Bujdu atasьnьn olança dərdi
Gyndə bir mysəlman başь kəsərdi.
Bu saat məhbusdur; istəsən əgər,
Şahid сьqararam bir necə nəfər.
Øzy də jaltaqьn biridir, onu,
Tanьjьb bilirəm kim olduqunu



Tez onu məktəbdən сьqarmalьjьz
Hajьfdьr Gyləndam, hajьfdьr o qьz.

---

Dumanlь søzlərlə bu alcaq hərif
Şahbaza ejlədi bu jolda təklif.
Şahbaza nə vardь o da habelə
Jyrəkdən jaqьndь millətciliklə.

---

Qəramanov o bir bejin oqludur.
Fitnəcilik onun əsas joludur.
Qəzada iş flan tapmadьqьndan
Dynja kəsilmişdi başьna zindan.
Braqdь qəzajь Bakьja gəldi
Şøhrəti bir az da artdь, jyksəldi
Qəhramanbejovun bejini atdь.
Işləməkcin gøzəl imkan jaratdь.
Bu køhnə aləmin səmimi qurdu,
Firqəjə girməkcin coq vurnuqurdu.
Bir jalan satьrdь hər nəfəsində
Imdi çədvəlcilik vəzifəsində
Calьşьrdь «bizim» bu Qəhramanov
Duruşu hiləkar, jyryşy məxof
Məqsədi hər an bir fitnə jaratmaq.
Qorqunç façiəli səhnə jaratmaq.

---

Şahbazь tanьjan adam coq azdьr
O başqa tylkydyr, başqa qurnazdьr.
Qaranlьqdьr onun kecmişi sizə
Ziddir dyşyncəsi dyşyncənizə
Rəngdən-rəngə dyşən buqələmundur
Dejən, atasьnьn bojnu joqundur.
Ojnajьr başьnda «mysavatcьlьq»
Dyşmən jatmamьşdьr ajьqdьr, ajьq
Burda işləməkdən bir məqsədi var
Qojun dərisinə girən çanavar....
Kələklə qomsomol katibi olmuş
Mə'dəndə øzynə nyfuz da bulmuş
Işləjir, gørsəniz neçə işləjir.
Dersiniz «inçədən inçə» işləjir.

VIII

*(Firqə katibi, Gyləndam, sonra tələbələr).*

**Katib**

Søjlə! nə var, nə joq joldaş Gyləndam!
Nicin gəlmişsiniz?

**Gyləndam**

Əgər danьşsam
Coq uzun cəkəçək.

**Katib**

Jaxşь di, gəlsin
Kiminlə dyşmyşdyr jenə də bəhsin

**Gyləndam**

Izin ver caqьrьm tələbələri
*(Qapьja kecərək tələbələrə)*
Uşaqlar hamьnьz gəlin icəri!

*(Uşaqlar gəlir).*

Biz, işə baqmajan bir sərsərinin
Bizə əsli gizlin olan birinin
Haqqьnda sizinlə danьşaçaqьz.

**Bir tələbə**

Bir az javaş danьş, ajьbdьr aqьz!

**Gyləndam**

Qoj firqə øzəgi bilsin nə varsa
Həddini anlasьn zijancьlarsa.
Qəhramanov kibi tənbəl adamlar
Bizim aramьzda məgər azmь var?

**Tələbələr**

Dyzdyr, dyzdyr jaman sojuqdur işə
Janьna gəlinçə dyşyr təşvişə.
Søz sormaq olmajьr; əli titrəjir
Dodaqlarь əsir, dili titrəjir,



Hec dyz jazьlmajьr əmək haqqьmьz
Havaja sovrulur calьşmaqьmьz
Øjlə dejilmidir Gyləndam?
— Bəli

Bilinməz ki nədir fikri, əməli,
Bir də coq dolaşьq məsələlər var
Onlarь təklikdə danьşmaq olar.

**Tələbə**

Gyləndam nə işdir

**Gyləndam**

Mənim işimdir
Mənim fьrtьnamdьr, keşməkeşimdir.

**Katib**

Mənçə bir jol ona təhmət verilmiş
Son zaman haqqьnda tədbir gørylmyş
Hər halda çəzasьz qalmajaçaqdьr
Sizin søzləriniz bysbytyn haqdьr;
Gedin işinizə.... bu xysusda biz,
Lazьmi tədbirlər gøtyrəçəgiz!

IX

Gurgeni bu hallar dyşyndyryrdy,
Sonsuz qalmaqallar dyşyndyryrdy,
Fikirləri qanlь bir orman kibi,
Ormanь colqamьş bir duman kibi
Şikajət hisləri. Fəqət nə zərər
Onu dəzgah qьzь daqьta bilər

**Gyləndam**

Nə var joldaş Gurgen

**Gurgen**

Bixəbərmisən
Məgər alcaqlarьn şərarətindən.

**Gyləndam**

Firqə katibinin janьna qacdьm;
Bytyn məsələji onuncun acdьm,

O hətta bu işə təəççyb etdi
Bytyn hadisəji mana səjlətdi
Coq maraq gəstərdi o bizimlədir
Səzlərim katibə coq etdi tə'sir
*(Qurgengilin tərəfdarları gəlir)*

**Biri**

Qurgen nə var nə joq?

**Qurgen**

Əjlə şej joqdur

**Digəri**

Bizdə səjləməgə səz hələ coqdur
Gyləndamla sizin haqqınızda bir
Material gərmyşdyr bu qoça myxbir
Iki anlamazın sacmalarıdır
Jeni Ameriqa acmalarıdır.
«Bunlar qomsomola jaramaz kibi,
Qomsomol julunda duramaz kibi,
Tyrk uşaqlarını dəjmyşdyr Qurgen
Nə bilim onları səjmyşdyr Qurgen
Kibi sacma-sapan» Şahbaz oqudu
Gylərək kaqızı çibinə qojdu.

**Gyləndam**

Qurgen ejbi joqdur

**Qurgen**

Kim dejir ki var
Həqiqət aqşamkı içlasda parlar
Gəliniz gedəlim! Az qalıb işə
Hər şejcin dyşməz ki adam təşvişə.

**E'malatxana**

Jenə işləjirlər cirməkli qollar,
Dəzgahın ystyndə səbrsiz ojnar.
Jenə işləjirlər dəzgahlar dənyr
Kobut dəmirlərə suvant syrtynyr.



— Aqız elə dutma suvantı, dajan!
Əgər elə dutsan tez jorularsan.
— Səjlə neçə dutum
— Belə dut, belə
Neçə ki dutarsan Qurgeni dilə.

**Gyləndam**

Arslan zarafatı mən əlym buraq

**Arslan**

Gər neçə işləjir Qurgen birçə baq!

**Gyləndam**

Nə olsun?

**Arslan**

Bir oqlu, bir qızı olsun.
Tombul ajaqları qırmızı olsun.

---

Datlı bir təbəssym, lətif bir əda
Qurgen Gyləndamdan bir az iraqda.
Dəzgahda, pərgara mismarlıq deşir,
Birlikdə, qəlbilə ruhu titrəşir.
Qurgen Gyləndama bojlanır baqır
Gəzləri syzylyr, jyrəgi aqır.
— Qurgen
— Ədə Qurgen
«Bir şapalaqla
Qurgen səksənərək cevrildi dala»
— Ədə zalım oqlu nə qudurmusan?
Aşna doqrudan da jaman vurmusan
Hec ystyny acma

**Qurgen**

— Mən əlym buraq;
Tezliklə bu işi gərək qurtaraq.

---

«Qurtaraq.... nə zaman qurtaraçaqdır.
Bir şejin ystyndə imdi hacaqdır
Durmuşlar; jarışa girməsəjdilər
Calışaçaqdılar bilsən nə qədər?!

Jarьş bu əməgi syr'ətləndirən
Beşləri jarьja salan, endirən
Qollardan cəkilən qyvvət dejilmi
Bizim sykutumuz syr'ət dejilmi?»

**Gyləndam**

Ꝗurgen joruldunmu?

**Ꝗurgen**

dejəsən bir az...
Həjatla carpьşan qollar jorulmaz
Lakin açьmьşam zəng vurulsajdь
Mə'dəmiz bəhrandan azad olsajdь.

---

Qajdajla uşaqlar işdən cьqьrlar
Səssiz aşxanaja doꝗru aqьrlar
Sadə bir jaşajьş, sadə bir həjat
Xərəklər istidir; dejildir bajat.

**Arslan.**

Sən neçə oldu ki ujdun Ꝗurgenə
Sizin bu sevdanьn dərinliginə
Endikçə insanьn aqlь sarsьlьr
Adam dyşyndykçə hejrətdə qalьr.

**Gyləndam**

Bizim məsələmiz həzindir, həzin
Tarixi bəjykdyr sevişməmizin
Sanma ki bu jolda dyşyb aqsadьm
Ujur məqsədinə cynky məqsədim.
O bəni icini cəkmədən sevdi
Eşq ycyn gəz jaşь təkmədən sevdi.
Zəhərli riqqətlər ondan uzaqdь
O mana bir oꝗul gəzilə baqdь
Gərmədim ki cьqsьn, jyrəgindən ah.
Gəzəldir bu məktəb, gəzəldir dəzgah.

X

*(Qontorda Qəhramanov və tələbələr).*

**Birinçi**

Joldaş az jazьlmьş mənim saatьm

**Qəhramanov**

Gynah əzyndədir nəjləjim?

**Birinçi**

Adьm,
Bir jaxşь baq, bəlkə dyz jazьlmamьş.

**Qəhramanov**

Ilahi haradan cьqdь bu qamьş.

**Ikinçi**

Bir gyn də dərsimi buraqmamьşkən,
Donluqum bu qədər az cьqьr nədən
Buna kimdir səbəb?!

**Qəhramanov**

Əzyn bilərsən
Savadьn var oqu! bu dəftər, bu sən.

**Ikinçi** *(dəftəri oqujur).*

Deqadьn ycyndə qajьbam bytyn
Aj joldaş sьnьfqam, aj joldaş Ərtyn
Deqadьn ycyndə mən dərsdə joqdum?

**Ərtyn**

Vardьn

**Ikinçi**

Bəs dəftərdə əzym oqudum
Ꝗajьblər dyzylmyş mana sьrajla.

**Ərtyn**

Myqəssir dejiləm burda mən əsla
Qəhramanov bilər get ondan soruş.
Get onunla savaş, onunla vuruş!

**Bir başqasь**

Səbəb bu işlərə Qəhramanovdur
Sьnьfqom nəjləsin myqəssir odur

**Qəhramanov**

Cьqьnьz bajьra işdən qacanlar
Siz өzynyzsynyz burda gynahkar.

**Birisi**

Bөjlə də iş olar, çanavar oƣlu
Haradan cьqarьr bu «proƣulu».

**Bir başqasь**

Danьşma haqqьndan olsaŋ da məhrum,
Jaxşьsь budur ki bir kərəlik jum!...

**Bir başqasь**

Bu işi zavqoma qandьraçaƣam
Onun atasьnь jandьraçaƣam.
Mənim əmək haqqьm nəcin kəsilsin,
Nəcin maaşьmdan hər aj əksilsin.
Burda bir fьrьldaq olmamьş dejil,
Burdan cьqmalьdьr o xajьn, rəzil!
Uşaqlar məktəbi gөryr myqəssir
Fəqət kim bilsin ki, bundadьr təqsir
Bajьrь pərdəli, ici şybhəli
Bilinməz ki nədir fikri, əməli.
Qoj bir içlas olsun dejərəm ona
Bir ojun acьm ki onun başьna,
Өzy də afərin sөjləsin.

**Digəri**

Məgər
Azmь icimizdə bunun kibikəri?!

---

XI

**IÇLAS.**

**Ƣurgen**

Məktəbin coq bөjyk noqsanlarь var,
Bə'zi tələbələr narazьdьrlar.
Əmək nizamьna fikir verəŋ joq,
Aramьzda bizim zərbəcilər coq.

Lakin tələbənin haqqь əksilir.
O da quruluşa sojuq kəsilir.
Kecən gyny erməni tələbələri
Hamьsь bir səslə qoşub iləri
Haqlarь uƣrunda dəjyşyrdylər.

*(Qəhramanova işarətlə)*

Bu işdə myqəssir o dejil məgər?

*(Qəhramanov içlasdan cьqьr)*

**Gyləndam**

Onunçu ƣrupun əmək haqqьna
Bəlkə zərbə vuran Qəhramanovdur.
Bir insaŋ lazьmdьr bunlarь qana
Bu hallara səbəb bəlli ki odur.

---

Onun fikri budur tələbələrin
Arasьna milli ədavət salsьn.
Өjlə ədavət ki dərindən-dərin
Habelə bu gyndən intiqam alsьn.

---

Onun fikri budur bytyn məktəbi
Narazь ejləsin bu quruluşdan.
Onun bu uƣursuz, qara mətləbi,
Xalqь istəjir ki cьqarsьn huşdan.

---

Xajьr bөjlə olmaz hər halda gərək,
Өrtyly işlərin acьlsьn ysty.
Bөjlə bir açьja dajanmaz jyrək,
Boƣur viçdanьmь bir qara tysty.

**Şahbaz.**

Bəsdir cərəncilik ajləmə, jetər!

**Gyləndam**

Hər halda millətci dejiləm, məgər
Bəni təhqir edən sən dejilmidin
Ƣurgenlə nə ycyn gəzirsən dejə.
Xatьrьnda varmь mana nə dedin
O gyn nələr etdin mana tevsijə.

**Şahbaz**

Coq gөzəl de gəlsin

**Gyləndam**

dejirəm eşid

Mən θzym edirəm sθzymdə tə'kid.
Sənin əmrin mana lazьm dejildir.
«Şahbaz açьqьndan əsirdi tir-tir»

**Bir tələbə**

*(Ꞡurgendən ərizə verən).*

Doqrudur cьqmьşdьr Ꞡurgen θzyndən
Bir şej anlamadьm lakin sθzyndən
Θzy geçə-gyndyz meşcanlьq edir
Gyləndamla birgə bulvara gedir....

**Sədr**

Bunlar qalsьn məktəb işindən danьş!

**Bir tələbə**

Joldaş mana sθz ver

**Sədr**

Jaxşь sən danьş

**Tələbə**

Joldaşlar!... Çənab Qəhramanovla,
Jaqьndan mən tanьş dejiləm əsla.
Kimdir, nəcidirsə bu alcaq adam,
Ona bu jaqьnda bələd olmuşam.
Çədvəlci dejildir, jalcьdьr o,
Bəlkə içtimai zijancьdьr o.
Odur uşaqlarь narazь salan.
Işci gənçlərinin haqqьnь calan.
Şahbazьn xatasь burda az dejil.
O tylkydyr, əvət o Şahbaz dejil.

*(Mydirə işarətlə)*

Joldaş mydir, səndə qysur azmьdьr
Sənçə bu adamlar anlamazmьdьr?
Bajraqь verdiniz rus qrupuna,
Məgər millətcilik dejilməz buna?

**Mydir**

Dyzdyr, dyzdyr lakin istehsalatda,
Gθrdyk qalmьşsьnьz hamьdan arda.

**Θrtyn**

Bir jazьq adamdьr bizim ustamьz
Bizə iş θjrədir zavodda jalnьz.
Qontor işlərindən başь cьqmajьr
Joqsa təçribəni buraqmamьşdьr,
Bir gyn belə olsun bizim uşaqlar,
Gθstəriniz burda kimdir gynahkar?
Sonra Ꞡurgengilin işinə gəlsək
Buna jaxşь fikir verilsin gərək.
Onlar bir-birini sevir jyrəklə
Bir coqu bunlarь salьr əngələ
Onlarьn gəzməsi millətcilərin,
Qəlbində bir açь buraqmьş—dərin!
Onlarьn tər-təmiz gejinməkləri
Qol-qola verərək gəzinməkləri,
Dyşynməjənlərin kejfinə dəgir.
Joldaşlar! Bu fikir doqru dejildir.
Biz hamьdan jaxşь gejinməlijiz,
Biz cynky kimsədən joqsul dejiliz.
Coq jaxşь iş gθryr Ꞡurgen, Gyləndam
Onlarьn dalьnça danьşan adam
Aqьlsьz dejilmi, qanmaz dejilmi,
Fikri səvijjəsi dajaz dejilmi?

**Sədr**

Coq gθzəl sθz joqdur kimsəjə artьq,
Jaxşь ki işlərin ystyny acdьq.
Jaxşь ki məsələ olundu təhlil
Bizim aramьzda xajьn az dejil.
Onlar başqa-başqa jollarla bizi,
Bizim sarsьlmajan birligimizi.
Jьqmaq, parcalamaq fikri daşьrlar.
Bizə isti-isti javuqlaşьrlar;
Onlar icdən bizi jьqmaq istəjir.
Bir başqa dynjaja cьqmaq istəjir.
Θjlə bir dynja ki proletariat
Dutqun gθjlərində calamaz qanat.
Θjlə bir dynja ki qalьn dumanlь
Gθjləri şimşəkli, jerləri qanlь,

Өjlə bir dynja ki şərarət dolu
Өlym, zulum dolu, əsarət dolu.
Өjlə bir dynja ki açьdan-açь,
Dyşgyn insanlarь şənlik möhtaçь.
Bizim dynjamьzda insanlar birdir.
Bizi birləşdirən Oqtjabrdir.

*(Içlas daqьlьr).*

---

XII

Kimdir pasolqada Aprel baqьnda,
Geçənin syd kimi ajdьnlьqьnda
Qol-qola gəzişən iki «sərsəri»?
Onlarьn vyqarlь gylyşmələri
Insana nə qədər bilsən xoş gəlir;
Səslər dalqa-dalqa enir, jyksəlir.
Qьzьn quçaqьnda jumru bir coçuq.
Ona bizim dildə dejirlər totuq...
Nə xoşdur ananьn coçuq sөzləri
Qurgenin qyrurla gylən gөzləri
Jenə bizim Qurgen nədir oqujur
Jenə də өzyndən nələr toqujur:

---

«Sevgilim dynjaja məsərrətlə baq
«Bu sulu, topraqlь dynja gөzəldir.
«O jьldьz, o bulut, bu gyl, bu japraq
«Demək jer gөzəldir, səma gөzəldir.

---

«Gөzəldir insanьn mybarəzəsi
«Quşlarьn nəqməsi, sularьn səsi.
«Gөzəldir şairin eşqi, həvəsi
«Sonsuz xilqətdəki mə'na gөzəldir.

---

«Xoşdur məhəbbətin xoşdur çamalьn
«Xoşdur ajrьlьqьn, xoşdur visalьn
«Mənim təsəvvyrym sənin xəjalьn
«Bunlarьn həpsindən daha gөzəldir.

---



Kimdir bu levhəjə açьqla baqan
Başьndan mazinin siqləti sarqan
O dyşgyn ixtijar, o kaftar qarь
Səjlə necin baqmaz bunlar juqarь;
Istəməm baqmasьn.......

**Son.**

Nə zaman dyşynyb, kecmişə dalsam,
Həmən o məktəbi fikrimə salsam,
Çanlanьr gөzymdə tələbələrim.
Gərilir, acьlьr xəjal şəhpərim.
Qomsomolcu Şahbaz mana sөz atьr
Qəhramanov mana diş qьçьrdatьr.
Çanlanьr gөzymdə bir qьz, bir oqlan
Sən buna şahidsən

Joldaş Neftalan!

---

*Çəbi dajь*

## FANTAN.

### Mənzum ocerq.

Sonsuz uƣultular arasьnda bir
Gөjlərə baş cəkən buruq titrəjir.
Capuq işcilərin tərpənişindən
Dөnmyş bir dalƣalь dənizə mə'dən
Hərəkət ətrafda fьrtьna kibi.
Hər kəs həjəçanda, buruq əsəbi
Bu dərin qujudan fantan ki vurur
Cilənir boşluƣa bir sisli jaƣmur.

---

Jerin damarьnь sorur bu fantan
Buruƣun başьna vurur bu fantan
Buruƣun cevrəsi biləşir neftə
Jerdə çevhər aqьr su kibi myftə
Buruƣ haraj cəkir qəlbində mətləb
Buruƣ dөjyşcylər ejləjir tələb
Hər kəs bir iş gөryr qalabalьqda
Bir janƣьn qorqusu var aralьqda.

---

Mə'dənin nasoslu dəstəsi gəlir
Gurultu daha da artьr, jyksəlir
Bunlara həvalə olunmuşdur iş
Vardьr buruƣ sarь bir ilərləjiş
Gurultu dəhşəti, janƣьn lərzəsi
Salmьşdьr hejrətə, xofə hər kəsi.
Lakin kimsə işdən geri qalmajьr
Kimsədə donuqluq, fьlan olmajьr,
Quju vulqan kibi icindən janьr
Nə bir aram dutur, nə bir dajanьr

Quju arslan kibi aƣzьnь acьr
O bunu, bu onu qovlajьb, qacьr.

**Çəbi işdə.**

Daha ilk baqьşda zirəklik edən
Qaşьnь cataraq, irəli gedən,
Saƣnaq arasьna soqulan Çəbi
Atьlьr çəbhəjə bir əskər kibi.
Mə'dəni bir ølym qorqusu alьr
Qorqu viçudlara vəlvələ salьr.
Çəbini qojnunda bøjytən kytlə,
Çəbilə birligdə boj atan kytlə,
Qojmajьr çəbini bu jyryşdə tək
Atьlьr ki, ona eləsin kømək.
Jyrəklənib girir hamь buruƣa.
Hamь hejran qalьr bu çoşqunluƣa.
Bu jyryş bir hyçum marşь kibidir,
Beşillik planьn bir tələbidir.

---

Mə'dəndə coqalьr qyvvə getdikçə
Jardьm dalƣalarь, cevrilir gyçə.
Çəbinin bu halь, bu çəsarəti
Toplajьr bir jerə bytyn qyvvəti....

---

Buruq qorquludur; işcilər budur:
Qujunun aƣzьna probqa vurur,
Fantanьn ønyny tezdən, alьrlar
Qompressor qojur, işə salьrlar
Həjəçan, fьrtьna, işgənçə, qorqu
Dejildir jaşamaq jyngyl bir ujqu
Birdən uƣultusun kəsir buruƣun
Olmajьr əsəbi, olmajьr çoşƣun
Artьq o qara su, borudan aqьr
Insan damarьndan sankь qan aqьr.
Saƣnaq arasьndan dəhşət icindən
Fьrtьna qojnundan vəhşət icindən
Çəbi hynərini gøstərib cьqьr,
Onun yzy aƣdьr alnь acьqdьr.

---

— Baƣladьq!..
Fərəhdən çoşur iscilər



Çəbinin ystynə qoşur işcilər,
Alьrlar—baqaraq bu mənzərəjə—
Yzyk qaşь kibi onu devrəjə.
— Aj Çəbi! fantanь neçə baƣladьn
Gərək qəzetlərə jazьlsьn adьn
— Onu deməzlər ki...
— Bah cək øzyny!
Bir başqasь ona dutub yzyny
— Saƣ ol, Çəbi dajь!
— Sən də coq saƣ ol!
— Aj balam kişijə bir jol verin, jol
Qojun bir az getsin
rahatlьq etsin.

---

Çəbini mən gøzəl təsvir etmədim.
Inçə nøqtələrə coq da getmədim.
Parlaq zərbəcidir mə'dəndə Çəbi
Şadlanьr hər işə gedəndə Çəbi.
Ondan ibrət alьr, işdən qacanlar
Tənbəl iqlimlərə jelkən acanlar.
Mə'dəndə hər zaman ismi anьlьr
Mə'dəndə birinçi adam sanьlьr
Əmək qəhramьnь adьnь almьş
O jalnьz mejlini zəhmətə salmьş
O jalnьz gyvənir iş qyvvəsinə
Işcilər səs verir onun səsinə.

**Çəbi kecmişdə.**

Zirzəmi qaranlьq, hər jer qaranlьq
Jalnьz o buçaqda, xəstə bir ьşьq...
Artьq zijalarь dyşyr yzlərə
Fikir ver burdakь odlu søzlərə:
— Joldaşlar! Tərlan bəj bizi aldatьr.
Onun dyşyndygy ançaq paradьr.
Onun søzlərinə inanmajьnьz
Şirin dillərinə aldanmajьnьz.
O bizi qulluqdan cьqara bilməz
Bizsiz buruqlardan çevhər cəkilməz
Daim onun bizə ehtijaçь var.
Bizim qyvvəmizə ehtijaçь var.

Сarьn kəlgəsidir onlar həmişə
Bu qujruqluq olmuş onlara peşə.
Işcijə, nə vətən nə millət, gərək
Gərək bu hallara qət'i son verək.
Urus, Tyrk, Ermənі—işcidir həpsi.
Onlarsa bilərək ajьrьr bizi.
Getsin aralьqda çanьmьz, nijə?
Aqsьn hədər jerə qanьmьz nijə?
Biz milli davadan əl cəkməlijik
Sьnьf qavqasьnda qan təkməlijik
Dejə—905 sənələrində
Qaranlьq gynlərin bir dəftərində
Çəbinin bu nitqi qejd olunmuşdu
Ystynə illərin tozu qonmuşdu
O zaman gyvənib iş qyvvəsinə
Coqu səs vermişdi onun səsinə.

**Çəbinin Bakьja gəlişi.**

O çoqdan ajrьlmьş arandan, dagdan.
Gəlmişdir Bakьja Çəbi Qazaqdan
Gəlmişdir ordan da ajrьlmamьşdьr,
Əvvəlki halьndan sьjrьlmamьşdьr.
Bir jandan işcidir, bir jandan kəntli
Dolanьr ajlarь, illəri dərdli
Cynky ajiləsi ordadьr onun.
Daima gəmlidir, daima məhzun.
Gəryr hampalarьn quldurlugunu
Joqsulluq Bakьja qovlajьr onu.
Kecməjir bir əjlə myddət aradan
Əl cəkir bysbytyn—«maldan-qaradan»
Əl cəkir Qazaqdan cьqьr nihajət
Başьnь Bakьja jьgьr nihajət.

**18-çi ildə.**

O bir gyn parlaman əryndə durur
Kimsəsizlər kibi bojnunu burur
Gəz salьr gajəsiz bir izdihama
Bə'zən dodaqlarь qacьşьr amma
Əskərana dogru gedən bu agьn
Həjata uzaqdьr, məmata jaqьn.



Balgonda bir ovuç bojnu jogunlar
Hamsьnьn cijnində zərli pagonlar
Ilan dərisi tək işьldamada.
Agaran dişləri gьçьrdamada:
—Gedin, ej vətənin mərd ogullarь!
Sizin sajənizdə ana dijarь
Gyləçək, gəzləri ajdьnlanaçaq
Galibijjət sizin-sizindir ançaq!

---

Əssəlam, ej bizim orduj islam!
Sizə Məhəmmədin ruhundan səlam.
Salam şəri'ətdən, salam qyr'andan.
Gedin qajьtmajьn hec əskərandan
Kim olarsa vətən jolunda tələf
Ucaçaqdьr ruhu çənnətə tərəf
Gedin Həsən, Hysejn eşqilə gedin
Dyşməni vətəndən qavьn, dəf edin.
Dənmyşdyr Qarabag Kərbybəlajə
Kim dəzər bu qədər dərdy-bəlajə,
Pərişan gejsulu jaralь Zejnəb
Sizdən bu kəməgi ejləjir tələb.

---

Parlaman ystyndə yc rəngli bajraq
Toqunur ruzgara dalgalanaraq,
Tomsonun yrəgi carpьnьr kibi.
Baqьr izdihama diqqətlə Çəbi:
—Qьrdьrьnьz xalqьn uşaqlarьnь.
Məjər bu gynlərin joqmu jarьnь?!
Sarь Ingilisin kor eşşəkləri.
Bu səzy o devrin bir kəlpəjsəri
Eşidinçə artьr qəlbində kini
—Bəjənmirsən islam həkymətini?..
Dejərək Çəbijə birdən əl acьr
Çəbi izdihama qarьşьr, qacьr.

**Çəbi kimdir.**

O daim çəbhədə hazьrdьr-hazьr,
Onun yc zərbəci dəstəsi vardьr.
Bəjlə fantanlarь coq gərmyşdi o.
Bəjlə buruqlara coq girmişdi o.

Coq dinləmiş bejlə gurultularь
Bu jolda ejləmiş əmryny jarь.
Çəbi neft uqrunda calьşan Çəbi
Hər dyrly zəhmətə alьşan Çəbi
Çəbi məhsulatьn gyçlənməsində
Proqramьn artьq ədənməsində
Ilk adьm atmьşdьr əz dəstəsilə
Vurub hər əngəlin yzynə sillə
Olmuş dəstəsilə mə'dəndə rəhbər
Olmuş mə'dəncilər dilində əzbər.

**Fantandan sonra.**

Qorqu yrəklərdən gedir bysbytyn
Cəkilir otaqda maxorqa, tytyn.
Jarьm saatdьr ki, dəstə dinçəlir
Rahatlьqdan sonra, dujqu inçəlir
Ortalьqda şirin danьşьq gedir
Bir gənç bir qoçajla zarafat edir.
Bu halda mə'dənin mydiri gəlir
O bajaqkь kibi dutqun dejildir.
Gəzləri sevinçdən fanar-fanardьr
Yzyndə məsərrət izləri vardьr.
— Saq olun joldaşlar! sizin işiniz
Bizə gəstərdi ki açiz dejiliz.
Gələçək beşillik planlarьda
Başqa sahələrdən, qalmajьb arda
Bejlə fantanlarla ədəməlijiz
Əlkəjə şərəfdir sizin işiniz.
Fəqət təhlykəsiz dejil fantanlar
Ona Çəbi kibi dənməz insanlar
Polat iradələr gərəkdir fəqət
Hər kəs almalьdьr Çəbidən ibrət
Çəbi vyqarlьjdь yzy gylyrdy;
Sijah neftə calan gəzy gylyrdy.

**Çəbi kəntdə.**

Bajьrda Çəbini firqəci Sərdar
Etmək istəjirdi işdən xəbərdar.
Çəbi dajь! burda bir coq adamlar
Gəlib qabaqьnda sənin jalvarar,



Dil təkər, aqlajar onlara ancaq
Bilirsən bu saat olmaz açьmaq.
Onlar bir azaçьq tapsalar imkan
Başqa bir surətə dyşərlər haman.

---

Toplanmьş çamaat, acьlmьş içlas.
Kim dejir, içlasda dyşman bulunmaz?
— Joldaşlar!—qolxozun sədri Bəxtijar
Kytləni ejləjir işdən xəbərdar.
Danьşьb Çəbijə sonra səz verir.
Çəbi də fikrini acьr, gəstərir:
— Joldaşlar! bu saat pambuq toplanьr
Fəqət işimizdə əksiklik vardьr.
Verilən planь doldurmaq gərək
Bu ilki fajizə son vurmaq gərək.
Bir coqu işində sajmazlьq edir
Bir coqu dyşmənə gyzəştə gedir.
Məsələn: Mirələm, məsələn, Həsən
Hələ atьlmamьş bajьra kəntdən.
Bə'zi firqəcilər Həsənə fəqət
Bəsləjir gizliçə hərmət, məhəbbət.
Dejirlər, ərizə versin qolxoza
Calьşьb bir təhər girsin qolxoza.
Hələ aqronomun gərdygy işlər...
Onun barəsində danьşaq əgər
Xijala sьqmajan bir dastan olar
Aj çanьm, bu qədər baq-bostan olar.
Tarlada pambuqdan başqa hər nə var
Qarpьz, jemiş, kəlik, jerkəky-xijar
Hələ bu da azdьr əmr verilir
Qotur tarlalardan pambuq dərilir
Ən jaxşь tarlalar qalьr o janda
O da xarablaşьr kylək qopanda
Kecən gyn pambuqu jaş toplamьşlar
O gedib zavoda, nə sajaq cьqar,
Bu nə hərəkət və bu nə fitnədir.
Bu iş zijancьlьq dejil də nədir?
—Dyzdyr!—Dyzdyr! «dejir içlasdakilər
Çəbi danьşdьqdan sonra, myxtəsər

Bir az Mirələmdən, bir az Həsəndən
Bu gynki içlasda səz salbb, həmən
Qьzqьn bir xitabla danьşьr sədir,
Jazьlьr başlara bir xejli tədbir.

---

**Çəbinin myxtəlif adamlarla gərysy.**
**Mirələm.**

—Aj Çəbi! bir dəjin mən nə etmişəm?
Mən hansь kəntlini coq inçitmişəm?
Necin qojmajьrlar məni içlasa?
Bu gyn bu içlasda jerim olmasa
Sabahda hec kəntdə olmajaçaqdьr.
Mənçə bu hərəkət aqdan da aqdьr.
Nə mal-qaram qalmьş nə səsim qalmьş
Nədə ki, cəkməjə nəfəsim qalmьş;
Bytyn var joqumu-braq alsьnlar,
Lakin kəntdən məni cьqarmasьnlar.
Əjər dyzəlməsəm insan dejiləm.
Dejərək, bьqьnь eşdi Mirələm
O kəhnə qolcomaq, o kəhnə oqru
«Əvət dyzəlməsəm» bu səzdə doqru-
Hansь bir həqiqət parьldajьrdь?
Danьşdьqça səsi xьrьldajьrdь.
Jaxşь, get! bir qədər dyşyndy Çəbi
Hevsələdən cьqmьş bir adam kibi.
Onun jəminləri boja deməkdir.
O hansь jollarla dyzələçəkdir.
O dyzəlməjəçək, kəntdə qalarsa
Cьqaçaqdьr jenə şəhrəti Marsa.
Jenidən dəjyşə başlajaçaqdьr
Hələ kejfi kəkdyr damaqь caqdьr.
Hələ itirməmiş kəsginligini
Hələ bir bьcaqdьr, kəsgindir kini
O, kəntdən bysbytyn atьlmalьdьr.
Əzgə bir aqьna qatьlmalьdьr.

**Həsən.**

—Aj Çəbi! coq şeji sən bilməjirsən.
Kitabdan oqujub bizə dejirsən.
Bu kəndlilər ki, var hədə... fьlanь...
Kim dejir səzynyn joqdur jalanь.



—Jaxşь, bir de gərym nə dejirsən ej...
—Hecnə bir az Miri ejlijir gilej
Bu kəndlilər ki var ajaqdan cəkən
Daim bir-birinin abrьnь təkən
Həjasьz şejlərdir ançaq Mirələm
Joq! joq! çanьnсьn o başqa bir aləm
Başqa bir kişidir, hec əzy kibi
Bu kəndə bir oqul gəlməmiş.

Çəbi

Başьnь qaldьrdь bir az juqarь
Fikrindən kecirdi bu qujruqlarь.
—Sən də qolcomaqsan?
—Joq!
—Qolxozcusan.
—. . . .
—Demək qolcomaqьn məhkəm burçusan
Odur, qolcomaqa atьlan oqlar
Əvvəlçədən sənin sinəni joqlar.
—Joq! fьlanь ki, var!
—Jə'ni kim?
—Sərdar.
Onun Mirələmlə ədavəti var.
Joqsa, hec Mirələm kibi bir insan
Tapьlmaz bu kəndi jyz il dolaşsan
Dejirlər ki, guja muzdur dəjmyşdyr;
Dalda hekyməti xejli səjmyşdyr.
Səjmək jalan səzdyr; dəjməjə gəlsən,
Elə bir adamь sən də dəjərsən.
Qacьrtdьrmasajdь kicik qьzьnь
Qanatdьrardьmь Sərdar aqzьnь?
Joqsa biz kişijə nəkər olmuşuq.
Onun qarьsьnda cərək bulmuşuq
—Əhsən, sənin kibi kəlgəjə, əhsən!
Dejincə, dik durdu jerindən Həsən.
Jaxşь, get! bir qədər dyşyndy Çəbi.
Hevsələdən cьqmьş bir adam kibi.

**Son.**

Jyzlərçə bu kibi acьq səhnələr,
Çəbinin işinə vurmadь zəfər.

Coqu etdisə də şikajət ondan.
O, fəqət cьqmadь firqə jolundan
O bə'zən gөryrdy aqlajanlarь
Evində qara jas saqlajanlarь
O bə'zən gөryrdy syrgynləri də
Dala qajьtmajan uzun səfərdə
Bə'zən janaqlarda jaşlar gөryrdy
Qьzarmьş topraqlar, daşlar gөryrdy,

Bəjaz tarlalarь, əvət, bə'zən də
Joqlamaq fikrilə gəlib gəzəndə,
Gөryrdy hər səhər tezdən ojanan,
Dөnməjən yzləri gynəşdə janan

Bir jьqьn dəjyşgən qolxozcularь
Gylyrdy yzynə pambuq baharь.
O bə'zən gөryrdy bir qolcomaqь
Alьnьr əlindən baqçasь, baqь.

Өnçə buralarь paslь gөryrdy.
Sonra jerlərində jasli gөryrdy.
O, bə'zən gөryrdy kөhnə bir qacaq
Şimal qajalardan gizli aşaraq

Neçə talan edir qolxozcularь
Və neçə dьrmanьr joquş-juqarь.
Məktəbi qlubu əvət, bə'zən də
Joqlamaq fikrilə gəlib gəzəndə.

Içlaslar qururdu, işlər gөryrdy
Qalstuqlu qьzlar onu byryrdy.
Pionerlər onu devrəjə alьr.
Coqunun bojnuna qolunu salьr,

Fərəhdən sinəsi dalqalanьrdь
Bu zaman hec dərdi joqdur sanьrdь.
O bə'zən bilirdi qomsomolcular,
Bir nə'rə cəksələr dynja ucular;

Qolcomaqlar qalar onun altьnda,
Bu dəqiqə onun kainatьnda...
Dərələr, təpələr, daqlar, pambuqdu.
Almalь baqcalar, baqlar pambuqdu.
Gəzərkən yfyqdə bəjaz bulutlar
Elə zənn edirdi gөjdə pambuq var.
O, bə'zən gөryrdy bir kecəl muzdur
Kecmişdə gөrdygy zulmu unudur,



Javunçuluq edir qolcomaqlara,
Bə'zən tyfəng alьb qacьr daqlara.
O bə'zən gөryrdy jalqьz bir coban
Aldanmьş, qacaqa olmuş mehriban
O, bə'zən gөryrdy bir firqəcini
Qolcomaq evində jalajьr cini
Өnyndə qarьşьq jollar gөryrdy.
Çəbhəsində saqlar «sol»lar gөryrdy.
Jyzlərçə bu kibi acьq səhnələr
Çəbinin işinə vurmadь zəfər
Coqu narazьlьq etdisə ondan
O fəqət cьqmadь firqə jolundan.

---

1932
524